Səh. 2 Susuz su çərşənbəsi – Azər Musaoğlu
Səh. 3 İnsanlıq – Alina Fətullayeva
Səh. 5 Tərifi sevib, tənqiddən qaçanlar – Çiyalə Osmanova
Səh. 6 Buba ünvanlı sonsuz məhəbbət – Mirzə Məmmədoğlu
Səh. 3 Gürcüstan azərbaycanlıları çətin gündə türk qardaşlarını tək buraxmadılar – Hacı Bəkiroğlu
Səh. 4 Şagirdin müəllim və ya direktoru şikayət etmək hüququ var
Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

28 FEVRAL
2023-CÜ İL
№ 004 (175)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

ხოჯალოს გენოციდი:
26.02.1992
613 მოკლული, მათ შორის:
63 ბავშვი;
106 ქალი;
70 ზრდასრული;
8 ოჯახი სრულიად განადგურებული;
25-მა ბავშვმა დაკარგა ორივე მშობელი;
130 ბავშმა დაკარგა ერთი მშობელი;
487 დაჭრილი;
1275 მძევლად აყვანილი;
150 დღემდე გაუჩინარებული...
აგრესორი: სომხეთი.

## BAŞ NAZİR ANKARADA TÜRKİYƏ PREZİDENTİ İLƏ GÖRÜŞÜB



Fevralın 23-ü Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə səfər edib. Baş nazir Prezident sarayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşüb. Bu barədə Gürcüstanın hökumət administrasiyası məlumat yayıb.

Məlumatda bildirilib ki, İ.Qaribaşvili zəlzələ nəticəsində həlak olanlarla bağlı R.T.Ərdoğana başsağlığı verib.

Bildirib ki, Gürcüstan dost türk xalqının yanındadır və istənilən yardımı göstərməyə hazırdır.

Rəcəb Tayyib Ərdoğan öz növbəsində dərhal edilən xilasetmə işlərinə və ayrılan maddi köməyə görə İ.Qaribaşviliyə təşəkkür edib.

Dövlət və hökumət başçıları iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərini, o cümlədən regionda həyata keçirilən iqtisadi layihələri müzakirə ediblər.

Türkiyə ilə Gürcüstan arasında ticarət əlaqələrinin daha da intensivləşdirilməsi məsələləri də diqqət mərkəzində olub.

Qeyd olunub ki, iki ölkə arasında əmtəə dövriyyəsi üç milyard dollara çatıb. İqtisadi-ticarət dövriyyəsinin daha da artırılması vacibdir.

Məlumata görə, nümayəndə heyətində daxili işlər naziri Vaxtanq Qomelauri, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Qriqol Liluaşvili, hökumət administrasiyasının rəhbəri Revaz Cavelidze və Fövqəladə Halların İdarəetməsi Xidmətinin rəisi Teymuraz Mqebrişvili olub.

## QIRMIZI ORDUNUN GÜRCÜSTANI İŞĞALINDAN 102 İL ÖTÜR



Fevralın 25-i Gürcüstanda sovet işğalının 102-ci ildönümü tamam olur. Gürcüstan Demokratik Respublikasının (GDR) qırmızı ordu tərəfindən işğalının ildönümü ilə əlaqədar gecə saatlarından etibarən parlament binası, hökumət administrasiyası, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, eləcə də ölkə ərazisindəki digər dövlət və hökumət binalarında dövlət bayrağı endirilib.

Qeyd edək ki, 1921-ci il fevralın 25-də Qırmızı ordu Tbilisiyə daxil olub və Gürcüstan Demokratik Respublikasını işğal edib.

Gürcüstan parlamentinin 21 iyul 2010-cu il tarixli qərarı ilə fevralın 25-i ölkədə Sovet işğalı günü elan olunub.

## İ.QARİBAŞVİLİ: “GÜRCÜSTAN VƏ GÜRCÜ XALQI TÜRKİYƏNİN VƏ TÜRK XALQININ YANINDADIR"



Gürcüstan və gürcü xalqı Türkiyənin və türk xalqının yanındadır. Türk xalqı Rəcəb Tayyib Ərdoğan kimi müdrik və güclü lideri ilə tarixin bu sınağından da qalib çıxacaq. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Türkiyə səfəri çərçivəsində fevralın 24-ü Türkiyənin Hatay vilayətinin Antakya şəhərində zəlzələnin nəticələri ilə tanış olarkən söyləyib.

Hökumət başçısı Türkiyədə baş verən zəlzələni dəhşətli faciə adlandırıb.

“Dəstək mesajımı və başsağlığımı dünən Prezident Rəcəb Tayyib Ərdoğana verdim. Mən ona dəstəyimi təsdiqlədim, həmrəy olduğumuzu bildirdim. Bu, Türkiyənin və qardaş xalqın başına gələn dəhşətli faciədir. Bildiyiniz kimi, bu zəlzələ nəticəsində 40 mindən çox insan ölüb, 100 mindən çoxu yaralanıb. Minlərlə insan mənzilsiz qalıb. Prezident Rəcəb Tayyib Ərdoğanla görüşümüzdə o mənə bildirdi ki, artıq müvafiq qərargah yaradılıb, plan hazırlanıb, bir ildə 270 minə yaxın mənzil tikiləcək”.

İ.Qaribaşvili Türkiyədə zəlzələ bölgəsində xilasetmə əməliyyatlarında iştirak edən gürcü xilasedicilərlə də görüşüb. Baş nazir bildirib ki, gürcü xilasedicilər işlərini uğurla davam etdiriblər.



# SUSUZ SU ÇƏRŞƏNBƏSİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Su çərşənbəsində suyumuz gəlmədi... Arzularımızı, diləklərimizi danışmağa su tapmadıq; arzularımız, diləklərimiz yenə dilimizin altında düyünlənib qaldı, üstündən su içib udmaq üçün yenə mağazadan benzin qiymətinə su alası olduq. Dünyanın yetmiş faizdən çoxu su olsa da əl-üzümüzü yumağa bir litr su tapa bilmədik; hamamların kafel-metlağı cadar bağladı, unitazların boğazı susuzluqdan quruyub qaysaqladı, dərdimizi danışmağa nə axar su tapdıq, nə durar su...

Hamı da vedrəsinin, çaydanının, dolçasının dibində qalmışdan ağzına su alaraq susdu, elə bil ki, elə belə də olasıdır, ağzımıza su alıb qiyamətə qədər susasıyıq, elə qiyamətə qədər suyumuzu kəsənlərlə aramızdan su keçəsi də deyil, sanki hansısa görünməyən sirli əl dədə-babadan aramıza su səpib, özü də elə səpib ki, yar gələndə toz olmasın. Bir nəfər də durub boğazında düyünlənmiş qəzəbi, hirsi, dilinin ucunda yığılıb qalmış etirazı ağzında saxladığı suyla bərabər boşaldaraq, tüpürərək suyu kəsənlərin aşının suyunu verməyə cəhd eləmir. Suyun günlərlə, həftələrlə verilməməsini hamı elə rahat, elə sakit qarşılayır, qəbul edir ki, suyu kəsənlərin də suyu kəsdikləri yadlarından çıxır, nə vaxtsa suyun veriləcəyi də. Qıraqdan baxan da deyər ki, hər iki tərəf də aydan arı, sudan durudur, sən niyə ayın-ilin bu vaxtı suyu bulandırırsan ki...

Gözümün suyu yaşa çevriləndən bəri eşidirəm ki, suyumuz 24 saat olacaq, üstündən 24 il ötsə də üzündə su olmayanların vəd etdikləri bu vaxtın yarısından da az su görürük, o da Allah kəssin (Allah kəsməsə də bəndə kəsir). Mənim bu 24 saat söhbətindən onsuz da gözüm su içmirdi. Suyumuzun 24 saat verilməsinin su üstündə ocaq qalamaq kimi bir zad olmasını hamımız çox yaxşı bilirik və onu da bilirik ki, sakit oturub bu cür nağıllara qulaq asmaq evlərimizə xəlbirlə su daşımaqdır.

Çox suların durulduğu bir vaxtda ağzına su alıb susaraq düşmənin dəyirmanına su tökmək əlini isti sudan soyuq suya vurmayanların, qara sudan qaymaq tutanların, hamam suyu ilə dost tutanların işidir. Onlarla bizim arxımızın suyu bir yerdən axmadığına görə bir suyumuz onlara oxşamamalıdır da. Nə qədər ki, suyumuzu kəsən idarənin yerinə su calamayacağıq, yurduna su ələməyəcəyik, üzünün suyunu tökməyəcəyik, suya salıb-çıxarmayacağıq, sudan quru çıxmağa imkan verməyəcəyik, sıxıb suyunu çıxarmayacağıq, otunu-suyunu verməyəcəyik bu xəmir hələ çox su aparacaq. Gərək qiyamətə qədər oturub taleyimizlə barışaraq yelkəni suya salaq, suyumuzu kəsənlər də bu su sükutundan yararlanıb, suyun dibinə yatıb, südə su qataraq su pulunu yeyib üstündən də su içsinlər... Axı çullarını sudan quru çıxartmaq üçün suyu üfürə-üfürə içirlər, bilirlər ki, bizlər heç vaxt su içdiyimiz quyuya tüpürməyəcəyik, elə buna görə də saman altından su yeritməklə məşğuldurlar.

Keçəl suya getməz! Qanı su ilə yumaq olur. Axı su murdarlıq götürməz deyiblər. İkinci çərşənbənin Od çərşənbəsi olduğunu da yəqin bilirsiniz artıq. Su olmayan yerdə odla oynamaq təhlükəlidir. Yəqin onu da bilirsiniz ki, odu su ilə söndürmək olur...

## XARİCİ İŞLƏR NAZİRLİYİ BELARUS PREZİDENTİNİN ABXAZİYA SEPARATÇILARI İLƏ GÖRÜŞÜNÜ PİSLƏYİB

Gürcüstanın Xarici İşlər Nazirliyi (XİN) Belarus Prezidenti Aleksandr Lukaşenkonun separatçı Abxaziya rejiminin nümayəndələri ilə görüşünü pisləyib. Bu barədə Gürcüstan XİN-in bəyanatında bildirilib.




Qeyd olunub ki, Belarusun bu addımı Gürcüstanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərini kobud surətdə pozur, bu görüş separatçı rejimin legitimləşdirilməsi cəhdidir.

“Biz Belarusu Gürcüstanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət etməyə, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə zidd olan fəaliyyətlərinə son verməyə çağırırıq”, – deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, Gürcüstanın işğal altındakı Abxaziya regionunun separatçı lideri Aslan Bjaniya Moskvaya “səfərindən” sonra Belarusa gedib və Aleksandr Lukaşenko ilə görüşüb.

## İLİA DARÇİAŞVİLİ: “GÜRCÜSTAN RUSİYA İLƏ MÜNAQİŞƏNİN DİNC YOLLA HƏLLİNİN TƏRƏFDARIDIR”



Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili BMT Baş Assambleyasının Ukraynada müharibənin ildönümü münasibətilə keçirilən xüsusi sessiyasında çıxışı zamanı Gürcüstanın Rusiya ilə münaqişənin dinc yolla həllinin tərəfdarı olduğunu bildirib.

XİN başçısı qeyd edib ki, münaqişənin dinc yolla həlli Gürcüstanın iki regionunun işğaldan azad edilməsi və xalqlar arasında etimadın bərpası ilə mümkün ola bilər.

İ.Darçiaşvili Gürcüstanın Ukraynanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə dəstəyini ifadə edib.

O, Gürcüstanın Ukraynada münaqişənin başa çatdırılmasına dair “Sülh Formulası” təşəbbüsünü dəstəklədiyini qeyd edib.

## ÖTƏN İL GÜRCÜSTANDA İNTERPOLUN XƏTTİ İLƏ AXTARIŞDA OLAN 37 NƏFƏR SAXLANILIB



Ötən il Gürcüstanda İnterpolun “qırmızı xətti” üzrə axtarışda olan 37 nəfər həbs edilib, axtarışda olan 307 nəfər saxlanılaraq məsuliyyətə cəlb olunub. Bu barədə Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri parlamentdəki çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, 2022-ci ildə qeydə alınan cinayətlərin açılma nisbəti 2021-ci illə müqayisədə 12 faiz çox olub.

Nazir deyib ki, ötən il, həmçinin aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində 6 “qanuni oğru”, oğru dünyası ilə əlaqəsi olan 79 nəfər saxlanılıb.

Bundan başqa, ötən il 202 narkotik alverçisi, 184 kibercinayətkar və insan alveri ilə məşğul olan 5 nəfər saxlanılıb.

# İNSANLIQ



Əsrlər, illər ötüb keçsə də bu dünyada dəyişməyən, mövcud olmağa davam edən biz insanlarıq. İnsan nədir? Yalnız nəfəs alan sümük və ət parçasından ibarət olan bir canlımı? Bəs o zaman nə üçün heyvanlar da biz insanlar kimi dəyər görmürlər? Onlar da insanlar kimi ətdən, sümükdən olan nəfəs alan canlılar deyillərmi?

İnsan həyatın bir parçasıdır. Əgər insanlar olmasaydı dünya olmazdı, bu gün istifadə etdiyimiz, gözlə gördüyümüz heç bir şey mövcud olmazdı. Görürsünüz, biz insanlar necə də vacib canlılar imişik. Bu günə qədər nələr ixtira edib, yaradıb bu insanlar, ancaq bu qədər şeyi ixtira edərkən, düzəldərkən əsas şeyi unutmuşuq – insanlığı.

İnsanlıq nədir? Təəssüflər olsun ki, artıq insanlığa çox nadir hallarda rast gəlmək mümkündür. Çünki bəzi insanlar beş-üç manata insanlıqlarını satırlar. İnsan dediyin şəxsdə vicdan, mərhəmət, sevgi hissi olar, bax, bizi digər canlılardan ayıran budur.

Türkiyə və Suriyada dəhşətli zəlzələ baş verdi. Bəlkə də mən həmin günə qədər zəlzələdən bu qədər qorxacağımı düşünməzdim, hətta yaşadığımız bu dövrdə zəlzələnin bu qədər ziyan törədəcəyinə belə inanmazdım. Nə yazıq ki, minlərlə insan öldü, yüzlərlə uşaq ailəsiz qaldı, atalar, analar övladlarını itirdilər...

Hanı ədalət?.. Bir günahkarın, işini doğru görməyən qatilin ucbatından minlərlə günahsız insan öldü. Axı o binaları tikən mühəndislər oxumuş şəxslərdirlər, diplomları var... Xeyr, istər bir yox, beş diplomu olsun, insanlıq olmadıqdan sonra nəyə yarar? Gözü ac, vicdan hissini itirmiş, guya oxumuş, diplomlu mühəndislər kağızdan binalara minlərlə insanları deyil, həmin insanlarla birlikdə minlərlə xəyalları, arzuları, sevincləri, xoşbəxtlikləri, xatirələri basdırdılar. Bu, insanlıqdırmı?

Nə üçün? Yüz manat artıq pul qazanacam deyəmi, isti, rahat evdə yaşayacam deyəmi, son model telefon işlədəcəm deyəmi, altımda bahalı maşınım olacaq deyəmi?.. Və dayanmadan bu cür başqa insanların haqlarına girmək... Bir gün etdikləri günahların qarşısında cavab verəcəklər, peşman olsalar belə heç nəyə yaramayacaq, çünki ölənlər bir daha o yaşadıqları gözəl günlərə geri dönə bilməyəcəklər, bir daha ata qızını görməyəcək, bir daha ailəliklə oturub axşam yeməyi yeyə bilməyəcəklər, bir-birlərinin üzlərinə bir daha baxmayacaqlar...

Dünyanın dörd bir yanından zəlzələ olan bölgələrə köməklik edilir – xilasedicilər, tibbi yardım, yemək, geyimlər, pul və s. Buna baxmayaraq, yenə də bu çətin gündə insanlıqlarını itirmişlər oğurluq edirlər: qızdırıcıları, sobaları, geyimləri, ərzaqları oğurlayırlar, hətta bəziləri uçmuş binaları gəzərək qızıl, pul və s. dəyərli əşyaları götürürlər. Öz ölümlərini düşünmürlər. Torpağın altına bu dünya malından yalnız kəfən götürürsən, amma o belə olmur bəzən. Kim bilir, bəlkə bir gün səni dəfn etmək üçün torpaq belə olmayacaq...

Bu həyatda dünya malı gəldi-gedərdi – yaşadığınız ev, istifadə etdiyiniz telefon, sürdüyünüz maşın, qızıllarınız və s. Yalnız və yalnız insanlıqdır qalıcı olan bu dünyada. Nə qədər ki yaşayırsınız, sevdiklərinizin qədrini bilin, qəlb qırmayın, axır-əvvəl bir gün bizlər də öləcəyik, nə zaman, harada, hansı şəkildə... bəlli deyil. Etmək istədiklərinizi təxirə salmayın, sonra gec olacaq.

Yazımı Lev Tolstoyun sözləri ilə bitirmək istəyirəm: "Hər kəs insanlığın pisə getdiyini qəbul edər, heç kim özünün pisə getdiyini qəbul etməz".

**Alina Fətullayeva**

Qardabani 3 nömrəli ictimai məktəbin 12-ci sinif şagirdi

# GÜRCÜSTAN AZƏRBAYCANLILARI ÇƏTİN GÜNDƏ TÜRK QARDAŞLARINI TƏK BURAXMADILAR



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Fevralın 6-da episentri Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı olmaqla baş vermiş iki zəlzələ dünyada olduğu kimi Gürcüstan vətəndaşlarını da dərin kədərə qərq etdi. Orada vəfat edənlər, yaralananlar öz yaxınlarıymış kimi buradakı xalq da üzüldü, kədərləndi göz yaşı tökdü. Xilas olan hər can bu xalqın da sevinc gözyaşları ilə qarşılandı. Xalq saatlarca gözünü televizorun ekranından çəkməyərək gələcək olan xoş xəbərlərə yönləndi.

Gürcüstanın hansı küncündə, hansı rayonunda, hansı kəndində bir Azərbaycan türkü varsa orada bir səfərbərlik təşkil olundu. Uşağından ağsaqqalına, ağbirçəyinə – hər kəs əlini daşın altına qoyub yardıma qaçdı. Edilən səfərbərlik əsnasında kimisi hələ istifadə etmədiyi cehizliyini, kimisi uşağına aldığı bezi, kimisi cibindəki son çörək pulunu bağışladı. Körpələr öz oyuncaqlarını göndərdilər. Hər kənddə, hər şəhərdə dəstək aksiyaları başladıldı; kimisi geyim, kimisi yatacaq dəsti, kimisi qida, kimisi isidici, kimisi də pul ilə dəstək olmağa çalışdı. Məhz elə bu sayədə Gürcüstanın paytaxt Tbilisidən, Kaxeti bölgəsində yerləşən kəndlərdən, Dmanisi və kəndlərindən, Qardabanidən və kəndlərindən, Marneulidən və kəndlərindən, Bolnisidən və kəndlərindən – bir sözlə, harada bir nəfər belə Azərbaycan türkü yaşayırsa o bölgələrdən toplanmış yorğan, döşək, uşaq bezi və yeməyi, isti paltarlar, qida, elektrik və odun sobaları və digər ehtiyac duyulan əşyalardan ibarət 43 yük maşını və iki mikroavtobus 697 ton yüklə zəlzələ bölgələrinə yola salındı.

Bundan əlavə, adı çəkilən məntəqə əhalisi tərəfindən toplanan təxminən 559365 (beş yüz əlli doqquz min üç yüz altmış beş) lari/təxminən 4015304 (dörd milyon on beş min üç yüz dörd) lirə məbləğində maddi yardım olunub. Bu vəsaitdən bir miqdarı Türkiyənin Gürcüstandakı səfirliyinə təhvil verilib, bir miqdarı isə Türkiyədəki AFAD, KIZILAY kimi dövlət qurumlarına və müəyyən vəqf və təşkilatlara göndərilərək oradan ehtiyac olunan ləvazimatların alınmasına xərclənib.

Qeyd olunan yük maşınlarından 7-si isə azərbaycanlıların kompakt yaşadıqları müxtəlif rayonlardakı dövlət qurumları tərəfindən təşkil edilmişdir. Maddi vəsaitin bir qismi isə Azərbaycanda və Rusiyada yaşayan həmyerlilərimiz tərəfindən toplanmışdır.

Məlum olduğu kimi, Gürcüstan dövləti də 1000000 (bir milyon) lari/7165000 (yeddi milyon yüz altmış beş min) lirə maddi dəstəklə birlikdə arama-qurtarma heyəti, tibbi ləvazimatlar göndərib. Həmçinin paytaxt Tbilisidə yaşayan gürcü vətəndaşlarımız da əllərindən gəldiyi qədər dəstək olmağa çalışıblar.

Qeyd edək ki, bu dəstək aksiyalarında QHT-lərlə birlikdə bələdiyyələr, Gürcüstan Azərbaycanlıları Konqresi, Gürcüstan Müsəlmanları İdarəsi, məktəblərin müəllim və şagird heyəti və bölgə əhalisi iştirak edib.

Araşdırma nəticəsindəki məlumatlar Türkiyənin Gürcüstandakı səfirliyinin bu yardım işləri üçün təyin etdiyi bölməsindən və bölgələrdə bu yardımla əlaqəli aktiv iştirak edən şəxslərdən əldə edilmişdir.

## DƏYİŞİKLİK 63 000 MÜƏLLİMƏ VƏ BÜTÜN MƏKTƏBLƏRƏ AİD OLACAQ




Təhsil və Elm Komitəsi qanunvericilik toplusu yayımlayıb. Burada Gürcüstanın ümumtəhsil, ali təhsil və təhsil keyfiyyətinin inkişafı haqqında qanunlarda edilmiş dəyişikliklərin məqsədi açıqlanıb.

Sənəddə qeyd olunub ki, təhsil keyfiyyəti və ona bərabər əlçatanlığın yaxşılaşdırılması üçün Gürcüstanda ümumtəhsil müəssisələrinin avtorizasiyası mütləqdir.

Avtorizasiya dövlət tərəfindən təhsil keyfiyyətinin qiymətləndirilməsi alətidir. Qanunvericilikdə edilmiş dəyişikliklərin məqsədi Gürcüstanda qüvvədə olan bütün ümumtəhsil müəssisələrində təhsil keyfiyyətinin yaxşılaşdırılmasıdır. Qanunda həyata keçirilmiş dəyişikliklər nəticəsində 2026-2027-ci tədris ilinə qədər Gürcüstanda olan bütün məktəblər avtorizasiyadan keçəcək. Avtorizasiya prosesi Gürcüstanda olan 2086 ictimai və 222 özəl məktəbə, 624 500 şagird və 62 981 müəllimə aiddir.

**Qanunda edilmiş dəyişikliklər nəticəsində:**

• Təhsil keyfiyyətinin sürətli, məzmuna istiqamətlənmiş, müasir avtorizasiya alətinin formalaşdırılması olacaq;

• Dövlətin dəstəyi ilə bütün ümumtəhsil müəssisələri keyfiyyətli təhsil üçün lazımı, dövlət tərəfindən müəyyən edilmiş standartları qane edəcək;

• Avtorizasiya prosesinin şəffaflıq və etibarlılıq səviyyəsi artacaq;

• Məktəblərin institusional inkişafa istiqamətlənmiş yanaşması yaxşılaşdırılacaq;

• Məktəb şagirdlərin inkişafı məqsədi ilə həyata keçirilmiş fəaliyyətlərlə qiymətləndiriləcək, buna uyğun olaraq şagirdlərə dəstək olan proqramlar/layihələr artacaq;

• Məktəbin fiziki, eləcə də sosial mühiti və təhsil metodologiyası yaxşılaşdırılacaq.

*Avtorizasiyadan keçmək prosesində yalnız infrastruktur məsələləri deyil, həm də məktəbin inkişafı, məktəbin missiyası, məqsədi də qiymətləndiriləcək. Müəllimin, məktəb administrasiyası əməkdaşlarının və şagird hüquqlarının müdafiəsi məsələlərinə xüsusi diqqət yetiriləcək. Eləcə də fənn səviyyəsində məktəb kurikulumlarının keyfiyyəti qiymətləndiriləcək.*

**Məktəbin təhsil fəaliyyəti hüququ qazanması üçün:**

• Təhsil proqramları şagirdlərin maraqlarına və məktəb icmasının ehtiyaclarına uyğun olmalıdır;

• Məktəb infrastrukturunu inkişaf etdirməlidir;

• Şagirdlərə dəstək olmağa istiqamətlənmiş layihələr hazırlanmalıdır;

• Məktəbin missiyası, məqsəd və baxışı formalaşdırılmalıdır.

Məktəblərə daha çox seçim azadlığı verilir. Yalnız dövlət tərəfindən qriflənmiş dərsliklərdən istifadə əvəzinə məktəblərdə rəngarəng dərsliklərdən istifadə etmək şəraiti və seçim azadlığı yaranacaq. Bunun üçün təkcə nazirliyi məlumatlandırmaq lazım olacaq.

## MƏKTƏBLƏRDƏ 5 FƏNN ÜZRƏ İMTAHAN KEÇİRİLƏCƏK

Təhsil nazirinin sərəncamı ilə 12-ci sinfə aid olan fənlərin ümumtəhsil proqramlarının eksternat imtahanlarının keçirilməsi müəyyən edilib.



Sənəddə qeyd olunub ki, imtahan mərkəzləşdirilmiş elektron formada keçiriləcək və sonrakı fənləri əhatə edəcək: gürcü dili və ədəbiyyatı, riyaziyyat, tarix, ingilis dili, mülki müdafiə və təhlükəsizlik.

## MƏKTƏBİN DƏRSİN HANSI SAATDA BAŞLAMASINA QƏRAR VERMƏK HÜQUQU VARMI?

Məktəblərdə dərs prosesi müxtəlif səbəblərdən irəli gələrək səhər saat 9-dan gec və ya tez də başlaya bilər. Bəs buna kim qərar verir?

"Etaloni.ge" dərsin saat neçədə başlamasına məktəbin qərar verə bilib-bilməməsi ilə maraqlanaraq məsələyə aydınlıq gətirmək üçün Gürcüstanın Təhsil və Elm Nazirliyinin qaynar xətti ilə əlaqə saxlayıb. Nazirlikdən bildiriblər ki, məktəb özü müstəqil şəkildə qərar verə bilər.

"Məktəb sərbəst şəkildə dərsin saat neçədə başlamasına özü qərar verə bilər. Bəzi məktəblərdə bir neçə məktəb birləşdiyi üçün iki və ya üç növbə yaranıb. Buna uyğun olaraq məktəb dərs prosesinə səhər saat 9-un yarısında başlaya bilər, qarışıq növbə də ola bilər və məktəb dərsə səhər saat 10-a 15 dəqiqə işləmiş, yaxud da 2-nin yarısında başlaya bilər, buna məktəbin tam hüququ var", – deyə Gürcüstanın Təhsil və Elm Nazirliyindən bildiriblər.

## ŞAGİRDİN MÜƏLLİM VƏ YA DİREKTORU ŞİKAYƏT ETMƏK HÜQUQU VAR

Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz şagirdlər üçün məlumat yayımlayıb. Məlumatda bildirilir ki, hər bir şagirdin öz hüquqlarının pozulmasına görə müraciət etmək hüququ var.



"Müraciət vicdanlı olmalıdır və ədalətin bərpasına xidmət göstərməlidir. Səni mütləq dinləyəcəklər! Ədalət bərpa olunacaq.

Yadında saxla ki, yalan ittiham vicdansız hərəkətdir və buna görə səndən cavab tələb olunacaq. Hər kəs öz əməlinə görə cavabdehdir.

Məktəb şagirdinin müraciəti şagirdin hüququnun valideyn, qayğı göstərən (ailə üzvü), müəllim, digər şagird, mandatur, məktəbin hər hansı əməkdaşı və ya direktorun qanunsuz hərəkəti nəticəsində pozulmasına aid ola bilər.

Məsələn, əgər səni fiziki və ya şifahi təhqir ediblərsə, əgər səni alçaldırlarsa, düşünürsənsə ki, ədalətsiz davranırlar və ya səbəbsiz olaraq səni nədəsə günahlandırırlar və s. sənin dəymiş ziyanın tam qarşılanmasını tələb etmək haqqın var.

Müraciətin hazırlanması:

Şagirdin müraciəti müstəqil, yaxud valideyn/qəyyum (ailə üzvü) ilə birlikdə təqdim etmək hüququ var. Müraciətdə ərizə yazanın kimliyi və ünvanı, hansı hüququn pozulduğu, ərizəçinin nəyi tələb etməsi yazılmazsa qəbul olunmayacaq.

Əgər şagirdin məktəb direktoruna etirazı varsa, müraciət məktəbin Qəyyumlar Şurasına təqdim olunmalıdır.

Qalan məsələlərlə bağlı müraciət məktəb direktoruna təqdim olunmalıdır. Sənin müraciətinin müzakirə edilməsi üçün onun qeydiyyatdan keçirilməsi mütləqdir.

Hazırlanmış müraciəti əl ilə kağızda yaza və ya elektron çap edə bilərsiniz. Sonra məktəbin işlərini idarə edən şəxsin yanında qeydiyyatdan keçirə bilərsiniz. Məktəbin işlərini idarə edən sizə müraciətin qeydiyyat nömrəsini və tarixi verməlidir.

Yaxud müraciəti elektron olaraq hazırlamalı və şəxsi – XXXX@students.gov.ge – elektron poçtundan məktəbin elektron poçt ünvanına göndərə bilərsiniz. Məktəbin elektron poçt ünvanını məktəbin kataloqunda – "catalog.emis.ge/main" ünvanında tapa bilərsiniz. Hər hansı müraciətin müzakirəsi zamanı şagirdi və sinif yoldaşlarını, müraciətlə əlaqədar başqa şəxsləri dinləyəcəklər, sübutlar əldə edəcəklər. Müraciət 1 ay ərzində müzakirə olunacaq.

Müəllimə qarşı etirazı məktəbin Nizam-İntizam Komitəsi müzakirə edəcək.

Məktəbin başqa əməkdaşına qarşı etirazı direktor və ya Nizam-İntizam Komitəsi müzakirə edəcək.

Məktəbin hər hansı şagirdinə və ya şagirdin valideyninə qarşı etirazı direktor, yaxud Nizam-İntizam Komitəsi müzakirə edəcək.

Direktora qarşı etirazı məktəbin Qəyyumlar Şurası və ya Nizam-İntizam Komitəsi müzakirə edəcək. Direktora qarşı etiraza əsas ola bilər: direktorun qərarı, direktorun hərəkəti və ya hərəkətsizliyi", – mərkəz tərəfindən yayımlanmış məlumatda qeyd olunub.

## MƏKTƏBLƏRDƏ BÖYÜK TƏNƏFFÜS NEÇƏ DƏQİQƏ OLMALIDIR?

İctimai məktəblərdə tənəffüs müddəti ən azı 5 dəqiqədir. Böyük tənəffüs isə dərslər arası yalnız bir dəfə olur və onun müddəti əksər hallarda 10 dəqiqədir. Buna görə şagirdlər və valideynlər tez-tez narazılıqlarını bildirirlər.



Narazılığın səbəbi isə bu qısa müddət ərzində şagirdlərin yemək yeməyi çatdırmamalarıdır. Valideynlər "etaloni.ge"yə bildiriblər ki, yüzlərlə uşağın təhsil aldığı məktəblərdə hamının 5-10 dəqiqəyə yeməkxanadan istədiyini alıb yeməsi mümkün deyil.

"Etaloni.ge" məktəblərdə böyük tənəffüsün ən çox neçə dəqiqə ola biləcəyi və bu məsələni tənzimləyə biləcək sənədin olub-olmaması ilə maraqlanıb. Aydın olub ki, tənəffüs müddəti ilə əlaqədar yeni milli tədris planında bu cür qeyd var: "İctimai məktəbdə dərslər arasında tənəffüs müddəti 5 dəqiqədən az ola bilməz. Tənəffüslər arasında biri böyük tənəffüs olmalıdır və məktəb bunu təhsil qrafikini nəzərə alaraq planlaşdırmalıdır. Böyük tənəffüs 10 dəqiqədən az və 30 dəqiqədən çox ola bilməz".

Rəsmi sənəddən aydın olur ki, məktəblər böyük tənəffüs vaxtının 10, 20, 30 dəqiqə olmasına özləri qərar verirlər.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# TƏRİFİ SEVİB, TƏNQİDDƏN QAÇANLAR



Deyirəm, gör nə qədər tərifi sevən insan var. Bunlara tərif az qala oksigen qədər vacibdir. Ətrafındakı hamıdan tərif, alqış gözləyirlər. Hamı öz işində uğur qazanmaq istəyir, mən bununla razı, amma elə insanlar var ki, etdikləri işlərdə tərif gözləyirlər, yaxşılıq edib minnət qoyanlar kimi. Tərifə o qədər alışıblar ki, o olmasa işə başlamağa həvəsləri belə olmur. Gərək kimsə yanlarında yelləncək yelləyərək uşaqları əyləndirən kimi onları da tərifləyib həvəsləndirsin. Bu insanlar tərifi sevdikləri kimi, tərifləyəni də sevirlər. Vay ola, kimsə kimisə tərifləyə, day o saat olur göz bəbəyi. Az qalır deyə sən ölmə, mən ölüm. Sənə gələn xata-bala mənə gəlsin. Olurlar can-ciyər.

Bir də var tənqid. Bax onda vay sənin qara gününə ki, kiməsə gözün üstündə qaşın var deyəsən, tənqid eləyəsən. Ondan sonra olursan qarğış yiyəsi. Kirpi kimi yumrulanıb tikanlarını dirəyirlər üstünə. Bir də baxırsan elə vəziyyət yaradıblar ki, haqlı ikən olubsan haqsız. Başlayırlar banan qabığı kimi ayağının altında qalıb səni sürüşdürüb yıxmağa. Sən ayağa qalxıb özünü toparlayandan sonra baxırsan ki yoxdurlar, tənqiddən qaçıblar. Görəsən hara qaçırlar? Bir də ki, niyə qaçırlar?

Bildiyimə görə, tənqid heç kimin mənliyini alçaltmır, əksinə onun mənfi cəhətlərini görərək, düzəldərək öz mənliyini yüksəltməsinə təkan verir. Amma iş orasındadır ki, insanlar mənfi cəhətlərinin üzə çıxmasını istəmirlər. Onlar öyrəniblər şənlərinə alqışlar eşitməyə, şeirlər yazılmasına. On ikinci əsrdə şahlara bu qədər mədhiyyə yazılmırdı, nəinki indi. Bir azdan bir iş gördükdən sonra deyəcəklər şərəfimə heykəl qoyulsun, küçələrə, prospektlərə adım verilsin. Dönüb işə baxanda isə görürsən ki, özündən başqa heç kimə faydası yoxdur.

Bütün sözümüzü tərifi sevənlərə deməyək, bir az da tərifləyənə ilişək. Görəsən bu kimisə tərifləyən şəxslər hansı mənafeyi güdürlər. Bir adamı nə qədər tərifləmək olar? Amma deyəsən cib pulla dolu olanda olur. Bir bənd tərifə bir sandıq qızıl qaydası işləyir yəqin. İşin içində pul olmasa ikinci ən məşhur səbəb olan vəzifə gəlir insanın ağlına. Yəqin vəzifə üçün bu qədər tərifləyirlər. Axı yüksək vəzifəyə gedən yol yaltaqlıqdan keçir, daha ali savad, diplom yalan olub. Bir də, deyəsən, təriflənmək üçün gərək yaşlı olasan, minimum on il sovet dövründə yaşamış olasan. Əgər 1991-ci ildən bu yana, əsasən də 2000-ci illərdə dünyaya gəlibsənsə, varlı, vəzifə sahibi deyilsənsə sən tərifə layiq deyilsən. Gənc ola bilərsən, amma təriflənə bilməzsən. Əslində beləsi daha yaxşıdır. Birdən biz də yaşlandıqca tərifpərəst olarıq. Elə isə bəri başdan tənqidə öyrənmək yaxşıdır. "Antikvar" şəxslər onsuz da o tərifləri özləri ilə aparacaqlar. Bizsə tənqidi ayna kimi əlimizdə tutaraq səhv cəhətlərimiz olan üzümüzü də görə bilək.

**Çiyalə Osmanova**

Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# HƏYATLARINI CADUYLA İDARƏ EDƏNLƏR



Hər bir millətin özünün inkişaf sahəsi var. Bizim millətin inkişaf sahəsi isə falçılıq, cadugərlik, baxıcılıqla bağlıdır.

Falçı adlandırılanların əksəriyyəti insanları aldatmaqla məşğuldurlar. Keçmişdən xəbər versə də, heç bir falçı insanın gələcəyini dəyişə, onu xoşbəxt edə bilməz. Bunu bacaran olsaydı, əvvəlcə özünə çarə qılardı. Axı falçıların bizim kimi dərdi yoxdurmu?

"Bu gecə mənə vergi verildi, ay camaat, daha mən də baxıcı oldum", deyə hər gün ortaya yeni fala baxanlar çıxır. Biznes yaradıblar. Hər falçının da cadusunun öz qiyməti var. Ağız, dil "bağlatmaq" ayrı, ər-arvadı boşatmaq ayrı, kimisə vəzifəsindən eləmək ayrı qiymətədir. Kofe içirsənsə qiymət artır, kartla baxdırırsansa stabildir, şəkillə baxdırırsansa onun da öz qiyməti var imiş.

Yeni falçılar isə öz bizneslərini müasirləşdiriblər. Deməli, hər şeyin onlayn rejimə keçdiyi ərəfələrdə, falçılar da bundan geri qalmadılar. Daha onların evlərinə, iş kabinentlərinə getməyə ehtiyac yoxdur. Tik-tokda müəyyən sayda bir izləyici kütləsinə sahib olan falçı və baxıcılar öz hesablarında "ödənişi zəhmət olmasa bu kart nömrəsinə edin" başlığı altında canlı yayım açaraq, canlı yayımda izləyicilərin falına baxır, suallarına cavab verirlər. Onlara inananlar da pulu köçürüb canlı yayımda adını, soyadını, yaşını və bir neçə vacib məlumatları yazıb başlayırlar diqqətlə qulaq asmağa. Falçı da kartları-filan düzür və həmin adamın keçmişini, onu gələcəkdə nə gözlədiyini deyir. İzləyənlərin çoxu da gəlin bacılardır. "Görəsən həyat yoldaşım məni daha çox sevəcəkmi" düşüncəsi ilə falçıya, baxıcıya pulu göz qırpmadan köçürürlər. Get o pulla evinə bazarlıq elə, həyat yoldaşına bir az xoş sifət göstər, onun üçün bir şey elə ki, səni daha çox sevsin. Niyə falçıdan, baxıcıdan mədət umursan. Sonra da yaxşı bir şeymiş kimi oturub danışırlar. "Ay qız, filan molla çox düz deyir, nə dedi elədim, elə gözəlik, elə gözəlik", deyə başlayırlar falçını tərifləməyə.

Adətən falçılar yaxşı psixoloq olur, insanın etibarını qazanıb bir az tanıyandan sonra, onu müəyyən bir gələcək həyata bağlayırlar və insan falçının vəd etdiyi gələcəyi özü gerçəkləşdirməyə başlayır. Falçı deyəndə beş gün sonra xoş xəbər alacaqsan, sevinəcəksən, o beş günə ümidlənərək özlərini hazırlayırlar. Bunun fərqində ola bilməyəcək qədər də gözlərinə pərdə asılır.

Ta qədim zamanlardan cadu təbiət qüvvələrinə qarşı istifadə olunsa da, zaman keçdikcə insanlar hər cürə işlərini caduyla həll etməyə başlayıblar: evlilik, boşanma, "ev yıxmaq", "ev tikmək", "bəxt açmaq", "bəxt bağlamaq", qayınana ilə dalaşmaq, ərin dilini, ağzını "bağlatdırmaq" və s. Bununla məşğul olanlar da "xalalardır", o "xalalar" ki, hər şeydən xəbərdardırlar. Onlar kiməsə pislik etmək üçün, kiminsə bəxtini "bağlatdırmaq" üçün, zəhlələri gedən kim varsa pis günə qoymaq üçün falçıya gedirlər – paxıllıq oduyla yanaraq "Mənim qızım niyə yarımadı, onunku xoşbəxt oldu", "Mənim oğlum niyə qazanmadı, onunku qazandı, bir cadu düzəltdirim, qiyməti nə olur olsun, təki onun uşağı da pis günə düşsün" deyənlər... Bir sözlə, bu "xalalar" çox təhlükəlidirlər. Onlarla gərək yaxşı dolanasan, yoxsa, bir də gördün "evdə qalmısan", ya da həkimdən "altı ay ömrün qalıb" xəbərini eşidirsən...

Ən məşhur cadu isə ərə getməklə bağlıdır. Əgər ərə gedə bilmirsənsə, bu "xalaların" sözünə görə, sənə güclü cadu ediblər. Evdə qalmağın, pul qazana bilməməyin, ailədə dava olmasının, sən demə, günahkarı "cadu"dur. Artıq elə hal yaranıb ki, insanlar bir-birinin sevincinə sevinə bilmədikləri üçün caduya əl atırlar. Sən kiməsə cadu etdirməmisənsə niyə özün pis olan kimi ağlına ilk öncə "mənə cadu edilib" düşüncəsi gəlir. Hər kəs də buna görə qorxur, elə nə oldusa deyir: "aha, burada bir əməl var".

Ailəni, xoş münasibəti qoruyan hansısa fırıldaqçının yalandan etdiyi cızmaqara deyil. Cadu etdirənlər də, əlbəttə, bir gün cavabını verəcəklər. Həyatın öz qanunları var. Nə yaşamalıyıqsa onu da yaşayıb görəcəyik. Üç gün sonramızı öyrəşib nə edə bilərik ki? Qarşısını ala biləcək yeganə qüdrət sahibi olan Allahdır. Biz ona sığınıb, ona sadiq bəndələrdən olsaq, hətta kimsə həqiqətən bizə cadu etdirmiş olsa belə, onun əsla təsiri olmaz.

**Aytən Fətullayeva**

Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# BUBA ÜNVANLI SONSUZ MƏHƏBBƏT



Gürcü kino aktyoru, estrada müğənnisi, ssenarist, kinorejissor, nəğmələr müəllifi, Gürcüstan SSR xalq artisti və Ukraynanın əməkdar artisti, SSRİ-nin, Şota Rustaveli adına Gürcüstan dövlət mükafatlarının laureatı, eləcə də beynəlxalq mahnılar və kinofestivallar laureatı Vaxtanq (Buba) Kikabidze yanvarın 15-i 84 yaşında dünyasını dəyişdi. Bu cür titulları, bəlkə də artığını, əksəriyyətini alanlar olub. Öz yerində. Görünməz hal idi. Bunun dəfnində millət ayağa qalxdı. Göz yaşı tökənlər də oldu. Bu sevgi haradandır? Mən Bakıya təhsil almağa gedən dövrlər onun fotoları əksər fotoatelyelər üçün loqo idi, reklam idi. Bura gələnlər, sən demə, onun duruşu fasonunda şəkil çəkdirərmişlər. Belə ki, onun mahnılarını, filmlərdə yaratdığı obrazları Azərbaycanda da sevirdilər...

Bir neçə il bundan əvvəl, daha doğrusu, 2018-ci ilin iyun ayında Bakıda keçirilən musiqi festivalında Vaxtanq Kikabidze gənc müğənni Sofo Nijaradze ilə iştirak etmişdilər və rəğbətlə qarşılanmışdılar. Qırmızı xalça üzərində tamaşaçıları salamlamışdılar...

Ölümü ilə əlaqədar hər yerdən başsağlığı məktubları axışmaqda idi. Məhz elə ilkin başsağlığı verənlərdən biri də Azərbaycan Prezidenti İlham Əliyev olub.

"Gürcü xalqının böyük oğlu, görkəmli müğənni, aktyor və rejissor Vaxtanq Kikabidzenin vəfatından dərin kədərləndik.

Vaxtanq Kikabidzenin adı sovet və gürcü mədəniyyəti tarixinə əbədi həkk olunub. Vaxtanq Kikabidze çoxşaxəli istedadı, yüksək peşəkarlığı və sənətə gətirdiyi yeni və bənzərsiz ab-hava sayəsində bütün dövrün simvoluna çevrilib. Onun kinoda canlandırdığı unudulmaz obrazlar, orijinal mahnılar bir neçə nəslin qəlbində xüsusi yer tutur.

Vaxtanq Kikabidze Azərbaycanın böyük dostu idi. Onun yaradıcılığı Azərbaycan xalqı tərəfindən həmişə sevilib, şəxsiyyətinə böyük hörmət və ehtiram göstərilib. O, həmçinin Azərbaycan və Gürcüstan arasında mədəni əlaqələrin inkişafına, dostluq və qonşuluq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verib.

Görkəmli sənətkar və səmimi insan Vaxtanq Kikabidzenin əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

Bu ağır itki ilə bağlı dərdinizi bölüşür, öz adımdan və Mehriban xanım Əliyeva adından dərin hüznlə başsağlığı verirəm", – İlham Əliyevin başsağlığı məktubunda deyilir.

Vaxtanq Kikabidze 1964-cü ildən kinoya çəkilmişdir. 1975-ci ildən "Gürcü filmi" studiyasının aktyoru olub. Məşhur rejissor Giorgi Daneliyanın "Qəm yemə" (1969) komediyasındakı Benjamen Qlonti rolu ona xüsusi şöhrət gətirib; eləcə də "Vera məhəlləsinin melodiyaları" filmi, 1977-ci ildə baş rolda oynadığı "Mimino" filmi. Kartaxen beynəlxalq kino festifalında "Qəm yemə" filmində ən yaxşı kişi roluna görə mükafat, "Mimino" filmində ən yaxşı kişi roluna görə dövlət mükafatı almışdır. Şərəf, III dərəcəli Vaxtanq Qorqasali ordenlərinə layiq görülüb. Moskvada "Ulduzlar meydanı"nda onun adına ulduz həkk olunub. 2020-ci ildən 10-cu çağırış Gürcüstan parlamentinə "Vahid Milli Hərəkat" – "Güc birlikdədir" birləşmiş müxalifət seçki blokundan siyahı ilə üzv idi. 2008-ci ildə Gürcüstana qarşı Rusiyanın təcavüzündən sonra Rusiyada estrada fəaliyyətindən və "Dostluq" ordenini almaqdan imtina edib. 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya soxulmasını pisləyib.

Yaxşı yadımdadır. Ötən əsrin 80-ci illərində "Mimino" filmindəki ifa etdiyi mahnı restoranlarda, parklarda, istirahət yerlərində çox oxunurdu, dillər əzbəri olmuşdu. Beləcə hamının sevgisini qazanmışdı. Özünü sevdirmişdi. Özü də sevirdi onu sevənləri. Məhz elə son mənzilə yola salınan zaman bu sevgi bir aləm olmuşdu, xeyli davam edən axına çevrilmişdi...



...Dəfnində, düzü, iştirak edə bilmədim, ayağım ağrıyırdı. Amma sonra onun qəbrini ziyarət etmək istədim. Vera qəbiristanlığının yuxarı tərəfindən daxil oldum, axtardım, aradım. Səhər tezdən idi. Xidmətçi bir qadından soruşdum. Aşağıdadır, qara qapıdan o yana, dördüncü. Getdim tapdım. Qəbir gül-çiçəklərə, əkillərə bürünmüşdü. Sıx-sıx olduğundan bəzilərini oxuya bildim: Volodimir Zelenski tərəfindən, Puqaçova və Qalkin tərəfindən, Qvertsiteli tərəfindən, Breqvadze tərəfindən, Azərbaycan səfirliyi tərəfindən... Nə isə, siyahını uzatmaq olar. Fakt odur ki, ona qarşı sevginin hüdudunun olmadığını hiss etdim. Bəs bu sevgi haradandır? Bizdə bir məsəl var: "nə əkərsən, onu da biçərsən". Mahnıları ilə, rolları ilə, həyatda davranışı ilə çox şey əkdi. Çox işlər gördü. Milət bunu yadında, yaddaşında saxladı. Odur ki, onu son mənzilə yola salanda ayağa qalxdı. Öz övladını son mənzilə filarmoniyadan, böyük konsert salonundan izdihamla Vera qəbiristanlığına yola saldı; özünün vəsiyyətinə görə... Anasının, iki il bundan öncə dünyasını dəyişmiş həyat yoldaşı İrina Kebadzenin yanında dəfn olundu. Qəbrin başında bir sütun var. Konstantine (Kotiko) Kikabidze (1910-1942-ci il), Manana Baqrationi (1915-2000-ci il). Atası müharibəyə gedib, 1942-ci ildə Kerç uğrunda döyüşlərdə həlak olub. Aldıqları qara kağıza görə. Dostu, məşhur ukraynalı jurnalist Qordon arayıb, axtarıb, onun müharibədə ölmədiyini, almanlar tərəfinə bir kəşfiyyatçı olaraq keçdiyini üzərə çıxartdı. Bu uzun söhbətdir. Qordon Bubanın Batumidə keçirilən 70 illik yubileyinə gələrək gözəl bir çıxış etdi. İndi də onun ölüm xəbərini eşidəndə kövrələrək, göz yaşlarını zorla saxlayaraq onun haqqında öz ürək sözlərini söylədi. Bubanın anası Baqrationilərdəndir, gürcü çarları sülaləsinə bağlıdır. "Mən Vaqifin şirin dilində oxuyuram" deyən görkəmli gürcü şairi Petre Qruzinskinin qohumudur. Nə isə...

Vera qəbiristanlığı qədim qəbiristanlıqlardan biridir. Vaxtilə həmin qəbiristanlığın yerində kərpiç zavodu olub. O dövrlər bu sahəni yaxşı bilənlər İrandan gəlirdi. Məsələn, vaxtilə mən yazmışdım ki, Mirzə Fətəli 1861-ci ildə Tiflisdə kərpic zavodunun sahibi Ələkbər Mustafa oğlundan 150 min ədəd kərpic, torpaq sahəsi alaraq dövlətdən kredit götürmüş və onu hissə-hissə ödəmişdir. Abxaziyaya Fazil İsgəndərin atası İrandan gələn azərbaycanlı olub. O, Abxaziyada kərpiç zavodu açıbmış. Abxaz qızı ilə evənib, sonra İran təbəəliyinə görə sovetlər birliyi onu ölkədən çıxarır. Nə isə, bu qəbiristanlığın yerində kərpiç kəsilib, alvız hazırlanıb, yəni çiy kərpic. Sonra onu arabalarla Vakeyə aparırlarmış, orada bişirirlərmiş...

Bu günlərdə yenə həmin qəbiristanlığa getdim. Onun qəbrini yenə ziyarət etdim. Qışın ayazı, soyuğu olmasına baxmayaraq güllər yenə də solmamışdı. Nə bilmək olar, qəbrindən çıxan hərarət, ruhundan gələn nəvaziş gülləri solmağa qoymayır. Qəbrinin hədd daşlarında şamlar, kibrit, stəkanlar və bir şüşə şərab qoymuşdular. Bunların dinində belə bir adət var. Şərabdan bir səkan süzdüm, ona rəhmət oxudum, öz dini üstündə Tanrıdan rəhmət dilədim.

Tanınmış şair Kote Qubaneişvili ona şeir həsr etdi:



"Onsuz şəhərdən əksildi,
Onsuz məhlədən əksildi,
Onsuz səhnədən əksildi,
Onsuz kinodan əksildi,
Əzizimiz Buba ilə vidalaşırıq,
Və onun qəbri üzərinə şərab calayırıq..."

Şair, aktyor Givi Sixarulidze dəfn günündə verdiyi müsahibəsində dedi: "Bu gün Tbilisi Tbilisidən ayrılır. Buba Tbilisi idi, Tbilisi Buba idi..."

Bəli, bu, doğrudan belədir. Bubanın bir mahnısı var. Qədim Tiflis, faytonçu barəsində. Sözləri rəhmətlik nağməkar şair Moris Potsxişvilinin, musiqisi Giorgi Sabadzenindir. Bu mahnını Buba Kikabidze "Tbilisoba" bayramında bu iki mahnı yaradıcısı ilə birlikdə faytonda əyləşdiyi zaman oxuyardı. Bu mahnı ilə bu bayrama xüsusi kolorit, rövnəq verərdi. Onu da deyim ki, Bu bayram ilk dəfə Tbilisidə 1979-cu il oktyabrın 28-də keçirilib. Ondan öncə Teletoba, Martğopoba... bayramları keçirilərdi. Hətta Tiflisdən də ora təşrif buyururadılar. 1990-cı illərin başlanğıcında fasilədən sonra bu bayram 1995-ci ildə yenidən bərpa olundu və ondan bəri hər il bir ənənə şəklini aldı. Bir ənənə şəklini alsa da əvvəlki istiliyə, əvvəlki ab-havaya, əvvəlki faytonda Bubanın bayramla həmahəng olmuş mahnısına bir növ ara verilmişdi. Hətta günləri də geri-irəli çəkilirdi. Əvvəllər rayonlardan kənd təsərrüfatı məhsulları gətirilir, ucuz satılırdı. Kef məclisləri qurulurdu...

...Vaxtanq Kikabidze çox lətifə bilirdi, onları da gözəl danışmaq, nəql etmək məharətinə malik idi. Onun lətifə danışmaq tərzi adama ləzzət verirdi. Onlardan biri budur:

"– Cumber, daha dözə bilmirəm, məni dəfn edin. Qara gün üçün bir az pul yığmışam.

– Nə deməkdir, dəfn edin?

– Daha dözə bilmirəm. İşıq yoxdur, qaz yoxdur, su yoxdur. Bu yoxdur, o yoxdur... Lakin bir xahişim var. Tabutu aparanda qabağında orkestr olsun, marş çalsın, matəm marşı...

Artıq saat ikidir. Rustaveli prospekti ilə maşın gedir, mərasimdir, tabutu aparırlar. Tabutda uzanmaq əvəzinə oturub. Siqaret çəkən imiş, siqaret çəkir. Camaat məətəl qalıb. Biri soruşur:

– Diri-dirimi basırırsınız?

– Özü deyib. Qaz yox, su yox, işıq yox...

– Adı nədir?

– Tutaq ki, Vaxtanqdır. Nə fərqi var.

– Çalmayın ay uşaqlar.

Onlar dayanırlar.

– Dinləyirəm sizi, xanım.

– Batono Vaxtanq, tənha qadınam, şəhərin mərkəzində beş otaqlı evim var. Bəlkə fikrinizi dəyişəsiniz. Başdan başlayaq, – deyir. Görür ki, gözəl qadındır:

– Neçənci mərtəbədədir.

– Yeddinci mərtəbədə.

– Çalın, davam edin, uşaqlar, – deyir".

Tbilisidə Avlabar məhəlləsində baxçada Giya Daneliyanın "Mimino" filminin personajlarının heykəlləri qoyulub. Onlardan biri Vaxtanq Kikabidzenin yaratdığı Valiko obrazıdır. Bu abidələr kompleksinin müəllifi ünlü heykəltaraş Zurab Seretelidir. Xeyli vaxtdır belə abidələr qoyulub. Bu isə Vaxtanq Kikabidzenin sağlığında qoyulmuşdu. Bu da sonsuz sevginin bir təzahürüdür. Bitib-tükənməyən sevginin. Bu sevgi onu son mənzilə yola salınan zaman da özünü büruzə verdi.

Allah rəhmət eləsin! Yeri behişt olsun!

Dərin, böyük hörmətlə və sayqılarla

**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## HƏYAT DƏRSLƏRİ

### 29. QÜRBƏTDƏN GÖRÜNƏN VƏTƏN



*(əvvəli ötən sayda)*

Mən tez-tez qürbəti vətənlə müqayisə etməli olurdum. Vətənimin təbiətini – flora və faunasını, insanlarını, gələnəyini-görənəyini – hər şeyini müqayisə üçün predmet edirdim. Çaylarını çaylarımızla tutuşdururdum. Dağlarımızı qürbət dağları ilə müqayisə etmək istəyirdim. Niderlandda dağ olmadığından bu istəyim boşa çıxırdı. Bu ölkənin ən yüksək nöqtəsi cəmi-cümlətanı 322 metrdir. Valserberq təpəsi – onu heç bizim bozqırlarla da yanaşı qoya bilməzsən; Kiçik Qafqazla, Böyük Qafqazla müqayisəmi etmək olar? Söhbət düşmüşkən, Niderland ərazisinin yarısının dəniz səviyyəsindən aşağıda yerləşdiyini bir daha yadınıza salıram. Ölkənin bu səviyyədən ən aşağı nöqtəsi 7 metr təşkil edir və Zuidplaspolder adlanır.

Əhalisinin 60 faizi dəniz səviyyəsindən aşağı ərazilərdə məskunlaşan ölkəni Azərbaycanla, Gürcüstanla müqayisə etdikcə qəribə mənzərələr qarşıma çıxır. Niderland ərazi baxımından Azərbaycandan iki dəfədən də çox kiçikdir. Gürcüstanınsa təxminən üçdə ikisinə bərabərdir. Əhalinin sayı baxımından isə az qala Azərbaycan əhalisindən iki dəfə, Gürcüstan əhalisindən isə 4-5 dəfə çox əhaliyə sahibdir. Ölkənin hər kvadrat kilometrində 405 adam yaşayır. Ərazisinə görə ölkə dünyada 131-incidir; əhalisinin sayına görə isə 64-üncüdür. Ərazi baxımından yüzün üstündəki mövqeyi ilə ÜDM-ın səviyyəsinə görə dünyada 17-ci sırada olmaq Niderland barədə dərindən düşünməyimizi tələb edir. Düzdür, əhalinin sayı, gəlirləri, ÜDM göstəriciləri hər il dəyişə bilər, ölkənin reytinqi bir-iki pillə enib-qalxa da bilər. Minimum əmək haqqının 1650 avro civarında dolaşmasını da dedimmi məsələ barədə az-çox təsəvvürümüz dolğunlaşacaq.

Meşələrimizi, çəmənlərimizi qürbətin yaşıllıqları ilə üzləşdirirəm. Bizim də hər şeyimizin var olmasına şükür edirəm. Amma bizim olana, Tanrının bizə verdiyinə münasibətimizdən utanıb yerə girdiyimi də deməsəm olmaz. Nədən beləyik?

Qürbət elin adamları ilə insanlarımızı tutuşdurduğum, tərəzinin ayrı-ayrı gözünə qoymağımı da deyim. Bizim də iki əl-ayağımız var, bunların da. Bizim də iki gözümüz var, bunların da. Belə baxanda heç bir fərqimiz yoxdur: nə saçımızda, nə başımızda. Bir az bunlar sarışın, biz qaraşın. Biz haylı-küylü, bunlar bizdən sakit. Gözlə görünən bunlardır. Olan fərq bumu yəni? Əslində bu olmamalıdır. Başqa nələrsə yenə var. Onları üzə çıxarmamız üçün bir az dərinlərə baş vurmamız gərək.

Avropa insanı niyə sakitdir, nə üçün rahatdır? Bunun bir səbəbi olmamış deyil. Bu, coğrafi yerləşmədənmi asılıdır, yoxsa havadan, sudan? Həyatımın qürbət dövrü saydığım bu vaxt ərzində gəldiyim qənaətlər sizin təəccübünüzə də gələ bilər, hələ bu fikirlər sizin gülüşünüzə, ən azından, dodağınızın qaçmasına da səbəb ola bilər. Avropalı toxdur. Sözün hər mənasında tox. Ən başdan onun qarnı toxdur. Gözü hər şeydən doyub. Dünya malı deyilən, maddi deyilən hər şeydən. Bütün ləzzətlərdən, bütün zövqlərdən doymuş bir cəmiyyət xəyal edin. Maddi-mənəvi olan hər şeyi həyatında yaşamış insana "tox" deməklə mən ifrata varmadığımı da bilirəm. Avropa insanı kimyadan təcrübə etdiyimiz doymuş məhlul kimidir. Bizim qafalarımıza Avropa barədə səhv bir təsəvvürün də hakim olduğunu söyləməsəm dura bilmirəm. Bilənimiz də, bilməyənimiz də Avropada intiharların sayca çoxluğundan dəm vurur. Sizi inandırım ki, Avropa insanının intihara, özünə sui-qəsd etməyə meyilliliyi də toxluqdan qaynaqlanır. Maddi-mənəvi təminatın izafiliyi insanın suisidinin nədənlərindən birinə çevrilir. Bizdə isə bunun əksi deyilmi? Bizim bəlalarımızın başında gözümüzün aclığı, mədəmizin aclığı, mənəviyyatımızın aclığı durur. İstər fiziki, istər mənəvi intiharlarımızın kökündə bizim aclığımız durur. Məni qınasanız da qənaətim budur. Maddi yoxsulluq mənəviyyatsızlığın təməlidir. Biz hər şeydən qabaq insanımızı aclıqdan xilas etməyi, onu doyurmağı öyrənməliyik. Mədəsini, gözünü, mənəviyyatını doyurduqmu, hər müşkülümüz çözüləcək. İnanın bütün sirr bundadır.

Biz siyasiləşmiş cəmiyyətik. Yuxarıdan aşağıya və ya əksinə, hamımız siyasiləşmişik, siyasiləşdirilmişik, politikanın çirkabına bulaşmışıq. Heç birimiz öz işimizlə məşğul olmaq istəməyəcək qədər siyasətin içində itib-batmışıq. İnsanlarımız bu siyasi olayların içərisindən az qala yüz illərdir çıxa bilmir. İnqilablar, müharibələr, repressiyalar, münaqişələr bir-birini əvəz edir. Ortada dəyişən bir şey yox. Köhnə hamam, köhnə tas. İslahatlarla insanımızı yormuşuq. Guya hər sahədə islahat aparırıq. Siyasi dairələrimiz hər şeyin yaxşı olacağını vəd edirlər.

Bir lətifə ilə fikrimi qüvvətləndirim.

Bir kişi dostunun evinə qonaq gedir. Xoş-beşdən sonra süfrə açılır. Qonaq diqqət edir ki, evin ətrafında silahlı adamlar dolaşır. Bunun nə məsələ olduğunu ev sahibindən soruşur. Ev sahibi cavabında deyir ki, onlar mənim düşmənlərimdir, məndən qisas almaq üçün səni öldürmək istəyirlər. Bizim kənddə ən ağır qisas qonağın öldürülməsidir. Ev sahibi qonağına "qonaq qardaş, sən qorxub-eləmə, qoy səni öldürsünlər, sənin qisasını özüm alacam; mən də onların ən əziz qonağını öldürəcəm" deməyi də unutmur.

İnsanımızın durumu ölüm təhlükəsi ilə üzləşən qonağın vəziyyətindən fərqlənmir. Nəsillər bir-birini əvəz edir, heç nə dəyişmir.

Beynimizdə yüz illər ərzində toplananlara, minillər boyu qazandıqlarımızı zamanın gedişinə uyğunlaşdıra bilməməyimizə baxmalıyıq. Biz zamanın çaldığı havaya oynamalıyıq, zaman bizim havamıza oynamaz.

Qürbətin heyvanlarından da bir-iki örnək verməyi düşünürəm. Düzü buna gərək varmı, yoxmu sualı əlimi xeyli saxlamama nədən oldu. Amma sonunda qınasalar da "yazmaq lazımdır" qənaətinə gəldim. İnəkləri sığırçı-naxırçı tanımayan Niderlandda qoyunlar çobansız, atlar da ilxıçısızdır. Heyvanların soncuq atdığını, ora-bura qaçdığını, özünü hara gəldi soxduğunu görməzsən. Bu nə rahatlıqdır? Bu nə heyvanlıqdır? Mal yiyəsinə oxşamasa haramdır demirlərmi? Cəmiyyətin rahatlığı heyvanlara da yansıyıb. Mənzərə qarşısında heyrətlənməyə bilmirsən. Nədən ki, biz görmüşük ev heyvanı atılar-düşər, inək süd sərnicini vurub yıxar, atın cini tutar, qoyunun nə bilim nəyi... Biz bunu görmüşük. Yoxsa bu nə davranışdır, nə hərəkətdir? Bir az diqqətli olsan verdiyin bu sualların cavabını əyani şəkildə tapacaqsan. Təmizliyindən tükü par-par parıldayan inəyin, yalı-quruğu daranmış atın atılıb-düşməyə, soncuqlamağa səbəbi qalmır. Üstəgəl qarnı da tox. Otu bol, suyu bol. Hər şeyi yanında hazır. Heyvan olsa da, onu heç kimin incitməyə haqqı da yoxdur. Dövlətin qanunları heyvanlara əziyyəti qadağan edir. Allahın heyvanına bundan artıq nə lazımdır? Belində çomaq qırılan inəklərimiz, sağrısını qamçı yandıran atlarımızı xəyal edirəm...

Yeri gəlmişkən, hollandlar təsərrüfatlarında heyvanların sayca çox olmasına, kəmiyyətə fikir vermirlər. Onlar üçün ev heyvanlarının keyfiyyəti önəmlidir, məsələn, inəyin daha çox süd verməsi. Bunun üçün heyvana vaxtaşırı baytar nəzarəti, gigiyena-sanitar qaydalara əməl etmək tələb olunur. Elm və texnikanın uğurları fermer təsərrüfatlarında dərhal tətbiq olunur. Avtomatlaşdırılmış, robotlaşdırılmış təsərrüfatlar istənilən qədərdir. İntensivlik göz qabağındadır.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**

Niderland

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ახალი გზა" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

28 FEVRAL 2023-CÜ İL
№ 004 (175)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## YIĞIM PENSİYASI SXEMİNDƏN ÇIXMAQ QAYDASI TƏSDİQLƏNİB

Yığım pensiyası sxemindən çıxmaq, pensiya yatırımı və ya başqa gəlirin qaytarılması və sistemə yenidən üzv olmaq qaydası təsdiqlənib.

Qaydaya əsasən, qanun qüvvəyə minənə qədər (2018-ci ilin 6 avqustu) 40 yaşı tamam olan (qanun qüvvəyə minənə qədər 60 yaşı tamam olan kişi və 55 yaşı tamam olan qadınlardan başqa) işlə təmin olunmuş və pensiya sxemi iştirakçısı olmaq istəməyən şəxsin pensiya sxemindən çıxmaq səlahiyyəti var. Həmin şəxs pensiya sxeminə məcburi qaydada ilə avtomatik üzv olduğu tarixdən 5 ay müddətində, ancaq üzv olma tarixindən 3 ay gec olmadan pensiya sxemindən bu qaydaya uyğun olaraq çıxa bilər.

Qeyd edək ki, bu qayda Gürcüstanın bütün vətəndaşlarına, həmçinin məktəb və bağça müəllimlərinə də aiddir.

İşlə təmin olunan şəxs bu maddənin birinci bəndi ilə tətbiq edilmiş müddətdə qaydaya uyğun olaraq pensiya sxemindən çıxmaq hüququndan yararlanmazsa o, pensiya sxeminin iştirakçısı olaraq qalır.

Pensiya sxemindən çıxdığı haqqında ərizə ilə Pensiya Agentliyinə və ya səlahiyyətli inzibati orqana müraciət edən zaman şəxsin identifikasiyası məqsədi ilə işlə təmin olunan, yaxud onun nümayəndəsi şəxsiyyəti təsdiq edən sənəd, nümayəndəsi olduqda isə notarius qaydası ilə təsdiq edilmiş müvafiq etibarnamə təqdim etməlidir.

"Elektron sistem avtomatik rejimdə işlə təmin edilmiş şəxsin pensiya sxemində iştirak etməsi ilə bağlı statusu haqqında məlumat yaradır, səlahiyyətli əməkdaş işlə təmin olunan şəxsə və ya nümayəndəyə məlumat verir", – sənəddə deyilir.

Qeyd edək ki, əgər işlə təmin olunan şəxs pensiya sxemindən çıxmağa səlahiyyətlidirsə, "səlahiyyətli əməkdaş elektron sistem vasitəsilə işlə təmin edilmiş şəxsin pensiya sxemindən çıxması haqqında ərizənin verilməsini, çap edilməsini və imza məqsədilə həmin şəxsə, nümayəndəyə verilməsini təmin edir".

Əgər şəxs pensiya sxemindən çıxmırsa, "elektron sistem işlə təmin olunan şəxsin pensiya sxemindən çıxması haqqında ərizə vermir".

*Mənbə: etaloni.ge*

## "BEEZ" UŞAQ TEATRINDA "QARINQULU AYI BALASI" TAMAŞASININ PREMYERASI OLUB




Fevralın 19-u Qardabanidə fəaliyyət göstərən "BEEZ" Uşaq Teatrının hazırladığı "Qarınqulu ayı balası" tamaşasının premyerası baş tutub.

Əsərin başlıca ideyası heyvanların dili ilə uşaqlara düz danışmaq, dostluğu təbliğ etmək, eləcə də əyləncəli şəkildə balacalarda həkimə, iynəyə qarşı qorxu hissini götürməkdir.

Vüqar Haqverdiyevin eyniadlı pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru teatrın bədii rəhbəri Binəli İslamoğludur. Tamaşanın geyim üzrə rəssamı Mahnur Enver, quruluşçu rəssamı AzMusdur. Rolları teatrın kiçik aktyorları Nuri Qurbanov, Rəhimə Əliyeva, Seymur Muradov, Zəhra Akif, Nuray Əhmədova, İslam Akif, Rabia Əhmədova, Nazlı Əliyeva və Elina İsayeva canlandırıblar.

Tamaşanın premyerasında Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı, Qardabani bələdiyyəsinin üzvləri, valideynlər iştirak ediblər.

Binəli İslamoğlunun sözlərinə görə, tamaşa martın 4-ü Tbilisidə, sonra isə bölgələrdə də nümayiş etdiriləcək.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ ARTIB




Milli Statistika Xidmətinin aylıq hesabatına əsasən, cari ilin yanvar ayında Gürcüstanın xarici ticarət dövriyyəsi 2022-ci ilin eyni dövrü ilə müqayisədə 29,1 faiz artaraq 1 milyard 461,8 milyon dollar təşkil edib.

Məlumata görə, xarici ticarətdə ixracın həcmi 459,0 milyon dollar təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 38,5 faiz çoxdur. İdxalın həcmi isə 25,2 faiz artaraq 1 milyard 0002,8 milyon dollar olub.

Hesabat dövründə ölkənin xarici ticarətində 543,9 milyon dollar və xarici ticarətin 37,2 faizi həcmində kəsir yaranıb.

Yanvar ayında Gürcüstanın xarici ticarət tərəfdaşları sırasında birinci yerdə Rusiya, ikinci yerdə Türkiyə, üçüncü yerdə isə Azərbaycan qərarlaşıb.

Gürcüstanın xarici ticarətində Rusiyanın payı 263,6 milyon dollar, Türkiyənin payı 196,1 milyon dollar, Azərbaycanın payı isə 120,4 milyon dollar təşkil edib.

## GÜRCÜSTAN FRANSADAN ÜÇ YENİ ÇOXFUNKSİYALI HELİKOPTER ALACAQ



Gürcüstan Fransanın "Airbus Helicopters" şirkətindən 3 ədəd yeni çoxfunksiyalı helikopter alacaq. Bu barədə hökumət administrasiyasından məlumat verilib.

Bildirilib ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə "Airbus Helicopters" şirkətinin icraçı direktoru Bruno İven Münxen konfransı çərçivəsində keçirilən görüşdə bununla bağlı müqavilə imzalayıblar.

Çoxməqsədli helikopter olan "H145" yanğınsöndürmə və dağ-xilasetmə avadanlıqları ilə də tam təchiz ediləcək.

## GÜRCÜSTANDA İŞSİZLİK SƏVİYYƏSİ 3 FAİZ AZALIB




Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, ölkədə 2022-ci ilin dördüncü rübündə işsizlik səviyyəsi 16,1 faiz təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 3 faiz azdır.

Məlumata görə, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə muzdlu işçilərin sayı 42,9 min nəfər artaraq 884,1 min nəfərə, özünüməşğulluq sahəsində işləyənlərin sayı isə 18 min nəfər artaraq 420,4 min nəfərə çatıb.

## GÜRCÜSTANDAN AZƏRBAYCANA BİR AYDA 2 436 ƏDƏD AVTOMOBİL İXRAC EDİLİB

Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2023-cü ilin yanvarında Gürcüstandan Azərbaycana 29,3 milyon dollar dəyərində 2 436 ədəd avtomobil ixrac edilib, illik müqayisədə Azərbaycana ixrac edilən avtomobillərin sayı 46 ədəd və ya 1,9 %, dəyəri isə 7,5 milyon dollar və ya 34,4 % artıb.

Ötən ilin yanvarında Gürcüstan Azərbaycana 21,8 milyon dollar dəyərində 2 390 ədəd avtomobil ixrac edib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.